# Şəhadətə ucalan QƏHRƏMAN

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış əsgər Azər Kamil oğlu Tağıyevin doğum günü münasibətilə anım tədbiri keçirilib.**

**Tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, ardınca Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Daha sonra dini icmanın sədri tərəfindən Qurani-Kərimdən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib.**



Anım mərasimində Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək şəhid Azər Tağıyevin qısa, lakin şərəfli həyat yolundan söz açıb. Bildirib ki, onun göstərdiyi qəhrəmanlıq Azərbaycan gəncliyinin Vətənə bağlılığının, yüksək mənəvi-əxlaqi dəyərlərə sahib olmasının parlaq nümunəsidir. Qeyd olunub ki, Azər Tağıyev kimi igid oğullarımız Vətən torpaqlarının müdafiəsi uğrunda heç bir tərəddüd etmədən canlarını fəda edərək xalqımızın tarixində silinməz iz qoyublar.

Rayon icra hakimiyyətinin başçısı xüsusi olaraq şəhid anaları və atalarının cəmiyyətdə ən uca məqama layiq olduqlarını vurğulayıb, onların göstərdiyi səbir, dözüm və vətənpərvərlik nümunəsinin hər bir Azərbaycan vətəndaşı üçün örnək olduğunu bildirib. Çıxış zamanı dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan bəhs edilərək, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər xüsusi qeyd olunub.

Daha sonra şəhid atası, Şəhid Ailələri İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mayis bəy, şəhid Rzayev Zülfünün anası Mehbarə xanım, qazilər və hərbçilər çıxış edərək şəhidlərin Vətən qarşısındakı misilsiz xidmətlərindən, onların əziz xatirəsinin daim uca tutulmasının vacibliyindən danışıblar.

Tədbir çərçivəsində məktəblilər tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş vətənpərvər ruhlu şeirlər səsləndirilib.

Sonda tədbir iştirakçıları Şahtaxtı kəndində yerləşən şəhidlərin məzarlarını ziyarət edərək üzərinə tər qərənfillər düzüb, ruhlarına dualar oxuyublar. Anım mərasimi şəhid ailələri ilə birlikdə xatirə fotosunun çəkilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, Azər Tağıyev 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2019-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Müharibə başlayandan Naxçıvandan yollanan dəstələrin içində ön cəbhədə döyüşlərə qatılır. Hadrut, Xankəndi istiqamətində döyüşlərdə iştirak edir. Şuşaya ilk ayaq basan igidlərimizdən olan Azər Şuşa uğrunda gedən əlbəyaxa döyüşlərdə iştirak edir. Noyabrın 9-u minamyot mərmisinin partlayışı nəticəsində qəhrəmancasına şəhid olur. Azər Tağıyev noyabrın 13-də doğulduğu Şahtaxtı kəndində son mənzilə yola salınıb.

MAXE Azər Tağıyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Azərbaycan Bayrağı" ordeni, "Şuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

**Ruhu şad olsun!**